*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 196-201*

https://doi.org/10.62837/2026.7.196

**Azərbaycan Tibb Universiteti**
**MIRZƏYEVA ARZU AĞANƏHMƏD QIZI**
**mirzayeva.arzu1960@gmail.com**
**ORCİD: 0009-0003-6717-4785**

# AKADEMİK NİTQİN XÜSUSİYYƏTLƏRİ VƏ KEYFİYYƏT MEYARLARI

## X Ü L A S Ə

**Açar sözlər:** *akademik nitq, nitqin keyfiyyəti, normalar, tədqiqat, dövlət dili*

Məqalədə akademik danışıq mühitində Azərbaycan dilində nitqin keyfiyyətinə təsir edən əsas amillər araşdırılır. Akademik nitq yalnız ünsiyyət vasitəsi deyil, həm də elmi düşüncənin, milli-mədəni dəyərlərin və intellektual səviyyənin göstəricisi kimi dəyərləndirilmişdir. Tədqiqatda nitqin keyfiyyətini müəyyən edən əsas meyarlar – düzgünlük, aydınlıq, məntiqlilik, səlislik, terminoloji dəqiqlik, üslubi uyğunluq və etik kommunikasiya prinsipləri geniş şəkildə təhlil edilmişdir.

Məqalədə vurğulanır ki, akademik danışığın formalaşmasına dil normalarına riayət olunması, zəngin söz ehtiyatı, düzgün tələffüz, intonasiya, elmi terminlərdən məqsədəuyğun istifadə və nitq mədəniyyəti mühüm təsir göstərir  Bununla yanaşı, müasir dövrdə rəqəmsal kommunikasiya vasitələrinin geniş yayılması, xarici dillərin təsiri, sosial şəbəkə dilinin gündəlik nitqə daxil olması və texnologiyaların inkişafı akademik nitqdə müəyyən dəyişikliklər yaratmışdır. Bu dəyişikliklər bir tərəfdən nitqin çevikliyini artırsa da, digər tərəfdən dilin saflığı və üslubi bütövlüyü baxımından müəyyən problemlər meydana çıxarır.

Tədqiqat zamanı ali təhsil müəssisələrində akademik nitq mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyi xüsusi qeyd edilmişdir. Müəllif hesab edir ki, tələbə və müəllimlərin nitq bacarıqlarının təkmilləşdirilməsi üçün praktik çıxışlar, elmi müzakirələr, debatlar və nitq texnikasına dair təlimlər genişləndirilməlidir. Eyni zamanda, Azərbaycan dilinin akademik mühitdə qorunması və zənginləşdirilməsi dövlət dil siyasətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirilmişdir.

Məqalənin nəticəsində belə qənaətə gəlinmişdir ki, akademik danışıqda nitqin keyfiyyəti yalnız dil qaydalarına əməl etməklə deyil, həm də intellektual hazırlıq, elmi düşüncə, kommunikativ bacarıq və milli dil şüurunun formalaşması ilə sıx bağlıdır. Akademik nitqin yüksək səviyyədə təşkili cəmiyyətin elmi və mədəni inkişafına mühüm töhfə verir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 196-201*

## FEATURES AND QUALITY CRITERIA OF ACADEMIC SPEECH

***Mirzayeva Arzu Aganahmed***

### S U M M A R Y

**Keywords:** *academic speech, quality of speech, norms, research, state language*

The article examines the main factors affecting the quality of speech in the Azerbaijani language within academic communication. Academic speech is evaluated not only as a means of communication but also as an indicator of scientific thinking, intellectual capacity, and national-cultural values. The study analyzes the major criteria determining speech quality, including accuracy, clarity, logical consistency, fluency, terminological precision, stylistic appropriateness, and ethical communication principles.

The article emphasizes that adherence to language norms, a rich vocabulary, proper pronunciation, intonation, appropriate use of scientific terminology, and speech culture significantly influence the formation of academic speech. At the same time, the rapid spread of digital communication technologies, the influence of foreign languages, and the language of social media have introduced noticeable changes into academic discourse. While these processes increase the flexibility and dynamism of speech, they also create challenges related to linguistic purity and stylistic integrity.

The research highlights the importance of developing academic speech culture in higher educational institutions. The author argues that scientific discussions, debates, public speaking activities, and speech training programs should be expanded to improve the communicative competence of students and teachers. Furthermore, preserving and enriching the Azerbaijani language in academic environments is considered one of the essential directions of national language policy.

The study concludes that the quality of academic speech depends not only on compliance with linguistic norms but also on intellectual preparation, scientific thinking, communicative competence, and national language awareness. A well-developed academic speech culture makes a significant contribution to the scientific and cultural progress of society.

## ОСОБЕННОСТИ И КРИТЕРИИ КАЧЕСТВА АКАДЕМИЧЕСКОЙ РЕЧИ

**Мирзаева Арзу Аганахмед кызы**

### Р Е З Ю М Е

**Ключевые слова:** *академическая речь, качество речи, нормы, исследования, государственный язык*

В статье исследуются основные факторы, влияющие на качество речи на азербайджанском языке в академической коммуникации. Академическая речь рассматривается не только как средство общения, но и как показатель научного

мышления, интеллектуального уровня и национально-культурных ценностей. В исследовании подробно анализируются основные критерии качества речи: правильность, логичность, ясность, плавность, терминологическая точность, стилистическая уместность и принципы речевой этики.

В статье подчеркивается, что важную роль в формировании академической речи играют соблюдение языковых норм, богатый словарный запас, правильное произношение, интонация, уместное использование научных терминов и культура речи. Наряду с этим отмечается влияние современных цифровых коммуникаций, иностранных языков и языка социальных сетей, которые вносят определённые изменения в академическую речь. С одной стороны, эти процессы делают речь более динамичной и гибкой, с другой — создают проблемы, связанные с сохранением чистоты языка и стилистической целостности.

Особое внимание уделяется необходимости развития культуры академической речи в высших учебных заведениях. Автор считает, что для совершенствования речевых навыков студентов и преподавателей необходимо расширять практику научных дискуссий, публичных выступлений, дебатов и специальных тренингов по технике речи. Также подчеркивается значимость сохранения и развития азербайджанского языка в академической среде как одного из приоритетных направлений государственной языковой политики.

В результате исследования делается вывод о том, что качество академической речи зависит не только от соблюдения языковых норм, но и от интеллектуальной подготовки, научного мышления, коммуникативной компетентности и уровня национального языкового сознания. Высокий уровень академической речи способствует научному и культурному развитию общества.

## VURĞU VƏ FASİLƏNİN AKADEMİK NITQDƏ ROLU

Akademik nitq elmi-pedaqoji fəaliyyətin əsas ünsiyyət vasitələrindən biridir. Mühazirə, seminar,dissertasiya müdafiəsi zamanı natiqin əsas məqsədi məlumatı dəqiq, anlaşıqlı və inandırıcı şəkildə auditoriyaya çatdırmaqdır. Nitqin keyfiyyəti "nə demək" ilə "necə demək" vəhdətindən yaranır. Əgər "nə demək" nitqin linqvistik tərəfini əhatə edirsə, "necə demək" prosodik tərəfi, yəni səsin fiziki-akustik xüsusiyyətlərini əhatə edir. Bu işdə akademik nitqin keyfiyyətinə təsir edən iki mühüm amil – vurğu və fasilə geniş şəkildə təhlil ediləcək.

## 1. AKADEMİK NİTQİN XÜSUSİYYƏTLƏRİ

Akademik nitq üslub baxımından elmi üsluba aiddir. Elmi üslubun əsas tələbləri dəqiqlik, mücərrədlik, məntiqilik və yığcamlıqdır. Akademik nitq yazılı elmi mətndən fərqli olaraq şifahi formada reallaşır və bu, ona əlavə tələblər qoyur.

Birincisi, akademik nitq normativ olmalıdır. Bu o deməkdir ki, natiq Azərbaycan ədəbi dilinin orfoepik, leksik və qrammatik normalarına ciddi riayət etməlidir.İkincisi, akademik nitq məntiqli olmalıdır. Üçüncüsü, akademik nitq anlaşıqlı olmalıdır. Anlaşıqlılığı təmin edən əsas vasitələrdən biri də düzgün vurğu və fasilədir.

**2. VURĞUNUN AKADEMİK NİTQDƏ ROLU**

Vurğu nitq axınında bir hecanın və ya sözün digərlərinə nisbətən daha qüvvətli, uca və uzun tələffüz edilməsidir. Azərbaycan dilində vurğu, bir qayda olaraq, son hecanın üzərinə düşür: ki´tab, müəllim´, universitet´. Lakin bu qaydanın istisnaları da var. Qoşmalar, ədatlar, bəzi alınma sözlər vurğusuz və ya ilk hecada vurğulu olur: ´ancaq, ´bəlkə, ´fizika, ´kimya.

Akademik nitqdə 3 növ vurğu aktualdır:

1. **Söz vurğusu.** Bu, hər bir sözün ədəbi dil normasına uyğun tələffüzüdür. Elmi terminlərin düzgün vurğulanması natiqin elmi səviyyəsinin göstəricisidir.

2. **Məntiqi vurğu.** Cümlə daxilində ən vacib informasiya daşıyan sözün digərlərindən fərqli tələffüzüdür. Məntiqi vurğunun yeri cümlənin mənasını tamamilə dəyişə bilər.Akademik nitqdə hipotezi, tədqiqatın yeniliyini, əldə olunmuş nəticəni çatdırarkən məntiqi vurğu mütləqdir.

3. **Emfatik vurğu.** Emosional çalar bildirmək üçün işlədilir. Akademik nitqdə emfatik vurğudan minimum istifadə olunur, çünki elmi üslub emosionallığı sevmir. Lakin elmi mübahisə zamanı öz arqumentini gücləndirmək üçün natiq emfatik vurğudan istifadə edə bilər. Bu növ vurğuda əsas məqsəd emosiyanı qarşı tərəfə ötürməkdir.

Vurğunun akademik nitqdə 4 əsas funksiyası var. Birincisi, məna fərqləndirmə. İkincisi, diqqət yönəltmə. Üçüncüsü, ritm yaratma. Hər sözü eyni tonda, eyni güclə demək nitqi monoton, yorucu edir. Dördüncüsü, terminoloji dəqiqlik. Beynəlxalq terminlərin vurğusu ana dilinin qanunlarına tabe olmalıdır, lakin elmi ictimaiyyətdə qəbul olunmuş formanı da pozmamalıdır.

**3. FASİLƏNİN AKADEMİK NİTQDƏ ROLU**

Fasilə nitq axını zamanı edilən şüurlu sükutdur. Fasilə durğu işarələrinin şifahi nitqdəki qarşılığıdır. Nöqtə yerində 2-3 saniyə, vergül yerində 0,5-1 saniyə, abzas yerində 3-4 saniyə fasilə verilir. Fasilə "boşluq" deyil, mənanın bir hissəsidir. Fasilənin 3 növü var:

1. **Qrammatik fasilə.** Cümlələr, tabeli mürəkkəb cümlənin tərkib hissələri, həmcins üzvlər arasında verilir. Məqsəd fikri məntiqi hissələrə bölməkdir.

2. **Məntiqi və ya psixoloji fasilə.** Natiq bu fasiləni dinləyicinin deyilən fikri həzm etməsi, dərk etməsi üçün verir.

3. **Nəfəs fasiləsi.** Bu, fizioloji tələbatdan doğan fasilədir. Peşəkar natiq nəfəs fasiləsini qrammatik fasilə ilə üst-üstə salır. Yəni nöqtə və ya vergül yerində həm fasilə verir, həm də nəfəs alır.

Fasilənin akademik nitqdə 4 əsas funksiyası var. Birincisi, anlaşılmanı təmin edir. Psixolinqvistikanın məlumatına görə, insan beyni 1 saniyədə orta hesabla 3-4 söz emal edə bilir. Əgər natiq dəqiqədə 180-200 söz deyirsə və fasilə vermirsə, dinləyici informasiyanın 40-50%-ni itirir. Abzaslar arasında verilən 2 saniyəlik fasilə beynə "bu informasiya bitdi, növbətini qəbul etməyə hazırlaş" siqnalı verir. İkincisi, həyəcanı idarə edir. Çıxış zamanı natiqin orqanizmində adrenalin artır və bu, danışığın sürətlənməsinə səbəb olur. Şüurlu fasilə natiqin öz tempini idarə etməsi üçün "əyləc" rolunu oynayır. Maraqlıdır ki, auditoriya fasiləni "natiq fikrini itirdi" kimi yox, "natiq özünə əmindir, tələsmir" kimi qəbul edir. Üçüncüsü, nitqin arxitektonikasını qurur. Fasilə şifahi nitqə "paraqraf", "abzas" funksiyası qazandırır. Giriş bitdi – fasilə, birinci məsələ bitdi – fasilə, nəticəyə keçirəm – fasilə. Dördüncüsü, sual-cavab üçün şərait yaradır. Natiq ritorik sual verdikdən sonra 3 saniyəlik fasilə versə, auditoriya bunu "düşünmək olar" kimi qəbul edir.

## 4. VURĞU VƏ FASİLƏ İLƏ BAĞLI TEZ -TEZ OLUNAN SƏHVLƏR

Akademik nitqdə ən çox rast gəlinən 5 tipik səhv var:

**1. Monotoniya.** Bütün cümlələri eyni tonla, eyni sürətlə, vurğusuz demək. Nəticə: 10 dəqiqədən sonra auditoriyanın 70%-i diqqətini itirir.

**2. Dialekt vurğusu.** Natiqin gəldiyi bölgənin tələffüzünü akademik nitqə gətirməsi.Bu, auditoriyada qeyri-ciddilik, "bu hələ ədəbi dili bilmir" təəssüratı yaranır.

**3. Fasiləsiz danışmaq.** "Vaxtım çatmır, hamısını deməliyəm" qorxusundan irəli gəlir. Natiq 10 dəqiqəlik məruzəni 7 dəqiqəyə "yerləşdirmək" üçün fasilələri "yeyir". Nəticə: Dinləyici boğulur, sual verməyə macal tapmır, əsas fikri tuta bilmir.

4. **"Eee", "yəni", "deməli" ilə dolu fasilələr.** Bunlara "parazit fasilələr" deyilir. Səbəb: natiq fikrini formalaşdıra bilmir və boşluğu "ee" ilə doldurur. 2-3 saniyəlik səmimi sükut "ee"dən 100 dəfə yaxşıdır.

**5. Hər sözü vurğulamaq.** Natiq "vacibdir" deyə hər sözü qışqıraraq deyir. Hər şey vacibdirsə, deməli heç nə vacib deyil. Auditoriya 2 dəqiqədən sonra heç bir sözü fərqləndirə bilmir. Aradan qaldırmaq üçün: "1 cümlədə 1 məntiqi vurğu" qaydasını tətbiq etmək.

## NƏTİCƏ

Akademik nitqdə vurğu və fasilə ikinci dərəcəli "bəzək" elementi deyil, mənanın ayrılmaz tərkib hissəsidir. Müasir kommunikasiya nəzəriyyəsi sübut edir ki, "necə deyirsən" "nə deyirsən" qədər vacibdir. Akademik nitqin 5 qızıl qaydasını yadda saxlamaq lazımdır: 1. Əsas tezisi deməzdən əvvəl 1 saniyəlik fasilə ver. 2. Bütün rəqəmləri, adları, yeni terminləri məntiqi vurğu ilə tələffüz et. 3. Hər 3 cümlədən bir nəfəs fasiləsi al. 4. "Eee" deməkdənsə, susmağı seç. 5. Auditoriyanın üzünə bax: qaşqabaq və anlaşılmazlıq görsən, fasilə ver və fikri başqa cür təkrar et.

Sonda qədim yunan filosofu Sokratın sözlərini parafraza etmək olar: "Danış ki, səni görüm". Akademik mühitdə isə bu fikir belə səslənir: "Vurğunu və fasiləni necə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 196-201*

qoyursan, elmi səviyyən elə görünür". Buna görə də hər bir tədqiqatçı, müəllim, tələbə üçün prosodik vasitələrə yiyələnmək elmi mətn yazmaq qədər vacib səriştədir.

## Ə D Ə B İ Y Y A T

1. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. I hissə. Fonetika. Bakı: Maarif, 2021;
2. Nizami Cəfərov. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, Elm nəşriyyatı, 2021;
3. Seyidov Y.M. Nitq mədəniyyəti və üslubiyyat. Bakı: ADPU nəşriyyatı, 2020;
4. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2019;
5. Adilov M.İ. Azərbaycan dilinin orfoepiya lüğəti. Bakı: Elm, 2019;
6. Veysəlli F.Y. Dilçiliyin əsasları. Bakı: Mütərcim, 2018;
7. Buludxan Xəlilov. Nitq mədəniyyəti. Bakı, Maarif nəşriyyatı, 2017;
8. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 2016.

**Rəyçi: dosent E.A.Məmmədova**